Xaqani küç., 21
AZ 1000, Bakı, Azərbaycan
Tel (+99412) 598 08 00
Faks (+99412) 598 08 80
E-mail info@bankrespublika.az
http://www.bankrespublika.az

***Səhmdarların Növbədənkənar Yığıncağının keçirilməsi haqqında bildiriş***

"Banklar haqqında" Azərbaycan Respublikası Qanunu və Azərbaycan Respublikasının Mülki Məcəlləsini rəhbər tutaraq "Bank Respublika" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti nəzərinizə çatdırır ki, 24 Sentyabr 2026-cı il tarixdə saat 12:00-da, Bakı şəhəri, Xaqani küçəsi 21 ünvanında yerləşən bankın Baş Ofisində Səhmdarların Növbədənkənar Ümumi Yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin nizamnamə kapitalının artırılması haqqında.
4. "Bank Respublika" ASC-nin nizamnaməsinə əlavə və dəyişikliklərin təsdiq edilməsi haqqında.
5. "Bank Respublika" ASC-nin Səhmdarlarının Ümumi Yığıncağının 24 iyul 2026-cı il tarixində keçirilmiş iclasında bəzi məsələlər üzrə qəbul edilmiş qərarlara yenidən baxılması və həmin məsələlər üzrə müvafiq qərarların qəbul edilməsi haqqında.
6. "Bank Respublika" ASC tərəfindən aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan müqavilə(lər)in təsdiq edilməsi.
7. "Bank Respublika" ASC-nin Müşahidə Şurasının tərkibi haqqında.
8. Digər məsələlər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən Siz Ümumi Yığıncaqda iştirak hüququnuzu bilavasitə özünüz və ya nümayəndəniz vasitəsilə həyata keçirə bilərsiniz.

Yığıncaqda özünüz iştirak edəcəyiniz halda, Siz qeydiyyat üçün şəxsiyyətinizi təsdiq edən sənədi təqdim etməlisiniz. Yığıncaqda nümayəndəniz iştirak edəcəksə, qeydiyyat üçün onun tərəfindən adına qanunvericilikdə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir.

Yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə materiallarla 15.09.2026-ci il tarixdən 22.09.2026-ci il tarixədək, şənbə və bazar günləri istisna olmaqla, saat $10^{00}$-dan $12^{00}$-dək yuxarıda qeyd olunan ünvanda, şəxsiyyəti təsdiq edən sənədi təqdim etməklə tanış ola bilərsiniz. Nümayəndə tərəfindən əlavə olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir. Zərurət yarandığı halda, bütün müvafiq materiallar eletron poçt vasitəsilə Sizə göndərilə bilər.

***Hörmətlə,***

***Aslan Abasov***
***İdarə Heyətinin Sədrinin müavini***

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti Bank Respublika Open Joint-Stock Company